

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

*Qəzet 1921-ci ildən çıxır*

Sayı: 86 (23.973)

*11 may 2022-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Mayın 10-da – xalqımızın xilaskar oğlu Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabanda ümummilli liderin məzarını ziyarət ediblər. Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoyub, ulu öndərin xatirəsini ehtiramla anıb. Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri də ulu öndər Heydər Əliyevin məzarı önünə gül dəstələri qoyublar. Sonra ulu öndərin ömürgün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi yad edilərək məzarı üzərinə gül dəstələri qoyulub. Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzülüb.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Füzuli rayonuna səfər ediblər.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il 10 may tarixli Sərəncamı ilə səhnə fəaliyyəti ilə bağlı bir qrup aparıcı incəsənət xadiminə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilmişdir. Prezident mükafatlarına layiq görülənlər arasında Naxçıvan Muxtar Respublikasının incəsənət xadimləri də vardır:

**Abutalıbov Şirzad Əsəd oğlu**
**Babayev Əbülfət Məmməd oğlu**
**Əliyeva İlahə Yavər qızı**
**Hacıyeva Siddiqə Zakir qızı**
**Qasımova Sevinc Vahid qızı**
**Rəhimov Səxavət Şərif oğlu**
**Rüstəmov Mahir Eldar oğlu**
**Rzayeva Elvira Nuca qızı**
**Seyidov Aqib İbrahim oğlu**
**Zeynalova Zülfiyyə Əsgər qızına**

Prezident mükafatları verilmişdir.

## Naxçıvanda ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü qeyd olunub





Mayın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoymuş, ulu öndərin xatirəsini dərin ehtiramla yad etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, nazirlik, komitə, xidmət və baş idarələrin, müəssisə və təşkilatların, ali məktəblərin, hərbi hissələrin nümayəndələri, Türkiyə və İran İslam respublikalarının Naxçıvan Muxtar Respublikasındakı Baş konsulları da ulu öndərin xatirəsini ehtiramla yad etmişlər.





Ümummilli liderimiz Heydər Əliyevin çətin, məsuliyyətli, lakin şərəfli və mənalı ömür yolu, zəngin ictimai-siyasi fəaliyyəti xalqa və dövlətçiliyə xidmət nümunəsidir. Ulu öndərimiz Azərbaycanın tərəqqi və inkişaf yolunu böyük uzaqgörənliklə müəyyənləşdirmiş, hər bir azərbaycanlının qəlbində özünə əbədi abidə ucaltmışdır.

Azərbaycanda 1969-cu il iyul ayının 14-dən başlanan Heydər Əliyev idarəçilik fəlsəfəsinin əsas ideya-siyasi istiqamətini xalqın tarixi yaddaşının və milli kimliyinin bərpası, sürətli inkişaf strategiyasının gerçəkləşməsi kimi mühüm amillər təşkil etmişdir. Ulu öndər dahiyanə uzaqgörənliklə ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks proqramın həyata keçirilməsinə nail olmuşdur. ***“Azərbaycan mənim ürəyimdir! Azərbaycan mənim nəfəsimdir! Azərbaycan mənim həyatımdır!”*** – deyən ulu öndər Azərbaycanın gələcək müstəqilliyi üçün təkcə iqtisadi əsaslar yaratmamış, bununla yanaşı, elm, təhsil, mədəniyyət və incəsənət sahəsində də böyük nailiyyətlər qazanılmış, milli oyanışın əsası qoyulmuşdur. Bir sözlə, böyük dövlət xadimi Heydər Əliyev 1969-1982-ci illərdə ölkəmizdə yüksək iqtisadi, elmi-mədəni və milli kadr potensialı formalaşdırmaqla bugünkü müstəqil Azərbaycanın möhkəm bünövrəsini yaratmışdır.

Ötən əsrin 90-cı illərinin əvvəllərində cərəyan edən ölkədaxili və regional siyasi proseslər Azərbaycanı uçurumun bir addımlığına gətirib çıxarmış, Ermənistanın əsassız torpaq iddialarına rəvac vermişdi. Belə bir şəraitdə ulu öndərin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı tarixi zərurətə çevrilmişdi. Çünki xalqımız qəti əmin idi ki, ölkəni düşdüyü ağır siyasi böhrandan çıxarmağın, torpaqları itirmək təhlükəsindən xilas etməyin bir yolu var: o da ulu öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışıdır. 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasında müstəqil dövlətçiliyimizin əsaslarını hazırlayan, üçrəngli bayrağımızı qaldıran, bu qədim diyarda milli birliyimizin və həmrəyliyimizin əsasını qoyan, milli ordu quruculuğuna başlayan ümummilli liderin 1993-cü ilin 15 iyununda xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı Milli Qurtuluş tariximizə çevrildi.

Ümummilli lider 1993-2003-cü illərdə Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsini, xalqın birliyinin təmin olunmasını, ictimai-siyasi sabitlik və iqtisadi dirçəliş üçün zəmin yaradılmasını dövlətçilik strategiyasının əsas istiqamətləri kimi müəyyənləşdirmişdi. Bu gün ümummilli lider Heydər Əliyevin siyasi xəttinin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ölkəmizin iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirmiş, Azərbaycan beynəlxalq münasibətlər sisteminin fəal üzvünə çevrilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Heydər Əliyev siyasəti Azərbaycanda davam etdirilir. Bu siyasətin alternativi yoxdur. Son illərin təcrübəsi onu göstərir ki, ölkəmiz və xalqımız yalnız bu yolla qabağa gedə bilər. Biz ulu öndərin siyasi irsinə sadiqik, onun siyasətini davam etdiririk, zənginləşdiririk”.***

Naxçıvan Muxtar Respublikası da inkişafın yeni mərhələsinə qədəm qoymuşdur. Gündən-günə inkişaf edən, tərəqqiyə qovuşan Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında əldə olunan bütün nailiyyətlərdə ümummilli liderimizin işi və əməlləri yaşayır. Zaman etibarilə o qədər də böyük olmayan bu dövrdə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı dinamik inkişaf etmiş, sosial proqramlar qəbul edilərək icra olunmuş, bir sözlə, ulu öndərin arzuları gerçəkləşdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Bu gün ölkəmizin və muxtar respublikamızın sosial-iqtisadi, elmi və mədəni həyatında gedən proseslərin kökündə fəal yaradıcı gücə malik olan Heydər Əliyev milli dövlətçilik konsepsiyası, inkişafın Heydər Əliyev modeli dayanır. Gecəli-gündüzlü fədakar əməyi ilə müstəqil Azərbaycan dövlətini yaradan, Azərbaycanı öz həyatının mənası bilən ulu öndərimizin xalqımız qarşısında xidmətləri unudulmazdır.***

*Ardı 2-ci səhifədə*

***Özündən sonra qüdrətli Azərbaycan adlı möhtəşəm abidə qoyub gedən ümummilli liderimizin adı, siyasi və dövlətçilik fəaliyyəti müstəqil Azərbaycanla birgə yaşayır və yaşayacaqdır!”***

Ulu öndər Heydər Əliyevin həyatı Azərbaycanın əbədi müstəqilliyinə, qüdrətli dövlətçiliyinə və davamlı inkişafına həsr olunmuşdur. Bu yolu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən Vətən müharibəsində ordumuz torpaqlarımızı işğaldan azad etdi, ərazi bütövlüyümüz təmin olundu.

Sonra Ali Məclisin Sədri və tədbir iştirakçıları Heydər Əliyev Muzeyinin fondunda saxlanılan rəsm əsərləri və xalçalardan ibarət sərgiyə baxmışlar.

Bildirilmişdir ki, muzeyin fondunda ümummilli liderlə bağlı tarixi sənədlərlə yanaşı, həm də Ona həsr olunmuş rəsm əsərləri, portret və xalçalar da mühafizə edilir. Sərgidə Heydər Əliyev Muzeyinin fondunda mühafizə olunan 22 portret və 2 xalça nümayiş olunmuşdur.

Sərgi ilə tanışlıqdan sonra Ali Məclisin Sədri demişdir: Bu gün ulu öndərimizin doğum günüdür. Böyük şəxsiyyətin ruhuna ehtiramımızı bildiririk. Bizimlə bərabər olmasa da, Onun əməlləri yaşayır. Hazırda ümummilli liderimizin ideyalarının, yolunun ölkə Prezidenti tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycan sabit və inkişaf etmiş ölkədir.

Həmin gün Naxçıvan Muxtar Respublikasının bütün rayonlarında da ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə tədbirlər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# *Ulu öndər Heydər Əliyev siyasətinin bəhrələri: davamlı inkişaf, yüksək rifah*

# Şərur rayonunun quruculuq xəritəsi genişlənir

Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***“Şərur rayonunun imkanları böyükdür... Arzu edirəm ki, buranı daha da abadlaşdırasınız, gözəlləşdirəsiniz və iqtisadiyyatını daha da inkişaf etdirəsiniz”.***

Bu gün ulu öndərin arzuları reallığa çevrilmişdir. Muxtar respublikanın davamlı sosial-iqtisadi inkişafı Şərur rayonunu da yeni inkişaf mərhələsinə çıxarmışdır. Rayon mərkəzində və kəndlərdə aparılan geniş quruculuq işləri, yaşayış səviyyəsinin yüksəlməsi, yeni iş yerlərinin açılması məskunlaşmanın artmasına səbəb olmuşdur. 2022-ci ildə də rayonda geniş quruculuq işləri aparılır, yeni inzibati binalar və sosial obyektlər, sənaye və mədəniyyət müəssisələri tikilərək istifadəyə verilir.

## Şərur Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik üçün müasir iş şəraiti yaradılıb

Mayın 10-da – ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümündə Şərur Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikasında geniş vüsət alan quruculuq işləri Şərur rayonunu da əhatə etmişdir. 2021 və 2022-ci illərdə Şərur şəhərində 40 mənzilli yaşayış binasının, Gigiyena və Epidemiologiya Şöbəsinin, eləcə də xidmət sahələrinin istifadəyə verilməsi, Saat Meydanının, Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxsin Şərur Rayon Şöbəsinin inzibati binasının, 7 yaşayış binasının, yeraltı piyada keçidinin, “Araz” Elm-İstehsalat Birliyinin Şərur Dayaq Məntəqəsinin, Sərxanlı kəndində içməli su xəttinin, Ərəbyengicə kəndində Sərhəd Zastavası üçün yeni xidmət və yaşayış komplekslərinin, 8 meqavatlıq Şərur Günəş Elektrik Stansiyasının, Muğanlı və Maxta yarımstansiyalarının tikintisi, yenidən qurulması və əsaslı təmir işləri başa çatdırılmışdır. Həmçinin ötən il Şəhriyar, Çərçiboğan və Dərvişlər kəndlərində kompleks quruculuq işləri aparılmışdır. Hazırda rayonun Vərməziyar, Alışar, Həmzəli və Axura kəndlərində inşaat işləri davam etdirilir. Naxçıvan-Sədərək magistralından Şərur şəhərinədək, həmçinin şəhərin Heydər Əliyev prospektini və 6 küçəsini əhatə edən 11,2 kilometrlik avtomobil yolunun, Ərəbyengicə kəndində Sərhəd Zastavasına gedən yolun, eyni zamanda Şəhriyar, Çərçiboğan və Dərvişlər kəndlərində kənddaxili yolların yenidən qurulması başa çatdırılmışdır. Görülən işlər rayon sakinləri tərəfindən minnətdarlıqla qarşılanmış, onların qurub-yaratmaq əzmini daha da artırmışdır. Kamal Cəfərov göstərilən diqqət və qayğıya görə rayon ictimaiyyəti adından minnətdarlıq etmişdir.







Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Şərur rayonunda tarixi bina – vaxtilə rayon partiya komitəsinin fəaliyyət göstərdiyi bina yenidən qurularaq dövlət təşkilatlarının istifadəsinə verilir. Bu gün ölkəmizin hər bir yerində abadlıq-quruculuq işləri aparılır. Azərbaycan inkişaf edir və ən əsası da odur ki, ölkəmizdə ulu öndər Heydər Əliyev siyasəti yaşayır və davam etdirilir. Bunun da nəticəsi olaraq Azərbaycanda sabitlik və inkişaf vardır. İnsanların yaşayışı, rifahı və iş şəraiti yaxşılaşdırılır. Bunlar o ölkədə baş verir ki, orada yol düzgün seçilib, ölkəyə uğurla rəhbərlik edilir. Bütün bunların hamısı ölkəmizdə mövcuddur. Bu yolun da əsası ümummilli liderimizin Azərbaycanda siyasi hakimiyyəti illərində qoyulmuşdur.

Ali Məclisin Sədri demişdir: Bu gün ümummilli liderimizin anadan olduğu gündür. Ulu öndərin siyasi xətti Şəruru da inkişafa qovuşdurub. Şərur rayonu yarandığı gündən ötən dövrdə heç vaxt bu qədər inkişaf etməmiş, rayonda bu qədər geniş quruculuq işləri aparılmamışdır. Təkcə quruculuq işləri deyil, Şərur rayonu, eyni zamanda kənd təsərrüfatı rayonudur. Aqrar sahə inkişaf etdirilir, bol məhsul istehsal olunur. Ölkəmizin ərzaq təhlükəsizliyində Şərur rayonunun da payı vardır. Bundan başqa, rayonun sənayeləşməsi üçün tədbirlər görülür. Sənaye məhəlləsi yaradılır, kiçik sahibkarlıq müəssisələrinin qurulması üçün dövlət tərəfindən kreditlər verilir, ailə təsərrüfatları inkişaf etdirilir. Bir sözlə, bu gün rayonun inkişafı üçün lazım olan bütün tədbirlər həyata keçirilir. Şərur Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binasında da əhaliyə xidmətlər göstəriləcəkdir. Ona görə də kollektivlər yaradılan şəraitdən istifadə edərək əhaliyə nümunəvi xidmət göstərməli, hər kəs öz vəzifəsini layiqincə yerinə yetirməli, dövlətin qayğısına layiqli işlə cavab verməlidir.



Şərur şəhər inzibati ərazi dairəsi üzrə nümayəndənin müavini Türkanə İsmayılova yaradılan şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlıq edərək demişdir: “Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyiniz dövrdə Naxçıvan böyük inkişaf yolu keçmiş, yenidən qurulmuşdur. Bu gün muxtar respublikanın hansı səmtinə yolumuz düşsə, düşünülmüş siyasətin möhtəşəm nəticəsini görəcəyik. Müstəqillik illərində muxtar respublikanın bütün bölgələri kimi, Şərur rayonuna da aparılan genişmiqyaslı quruculuq tədbirlərindən pay düşmüşdür. Rayonun sovet dövründən qalma köhnə, yararsız tikililərinin yerində müasir görünüşlü, hərtərəfli şəraitə malik yeni binalar ucaldılmışdır. Həyata keçirilən tədbirlər nəticəsində Şərur şəhərində də yüksək səviyyəli infrastruktur yaradılmışdır. Təsadüfi deyil ki, bu gün Şərur müasir Azərbaycan şəhərləri sırasındadır”.

Sonra binaya baxış olmuşdur. Məlumat verilmişdir ki, iki mərtəbədən ibarət olan binada 6 təşkilat fəaliyyət göstərəcək. Binanın birinci mərtəbəsində Şərur Şəhər Bələdiyyəsi üçün 4, Şərur rayon 1 saylı Notariat Ofisi üçün 3 və statistika işçiləri üçün iş otaqları nəzərdə tutulmuşdur. Şərur rayon Ağsaqqallar Şurası üçün də binanın birinci mərtəbəsində otaq ayrılmışdır. Binada 44 yerlik iclas zalı yerləşir.

Binanın ikinci mərtəbəsində Şərur Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik üçün 5 iş otağı və arxiv, eyni zamanda Yeni Azərbaycan Partiyası Şərur şəhər ərazi ilk partiya təşkilatı yerləşir. Təşkilatın 899 üzvü vardır ki, onlardan da 244-ü gənc, 396-sı isə qadındır.

Ərazi ilk partiya təşkilatının sədr müavini Ramin Şükürov partiya üzvləri və Şərur rayon sakinləri adından yaradılan şəraitə görə minnətdarlıq edərək demişdir: “Bu gün Azərbaycan öz intibah dövrünü yaşayır, bütün sahələr üzrə inkişaf edir, müasirləşir. Ulu öndərimizin arzuları bir-birinin ardınca həyata keçirilir. İnkişafın ən mükəmməl nəticələrini bu gün Naxçıvan Muxtar Respublikasında da görürük. Son illərdə muxtar respublikanın siması köklü surətdə yenilənmişdir. Əhalinin güzəranı, həyat səviyyəsi yüksəlmişdir. Bütün bunlar muxtar respublika rəhbərinin gərgin əməyi sayəsində mümkün olmuşdur. Muxtar respublikanın bütün rayonları kimi, Şərur rayonu da sürətlə inkişaf edir, çiçəklənir. Şərurlular bu inkişafı ulu öndərimiz Heydər Əliyevin inkişaf strategiyasının bariz nümunəsi kimi qiymətləndirirlər. Biz də partiya üzvləri olaraq yaradılan şəraitdən səmərəli istifadə edəcəyik”.

Ağsaqqallar Şurasının sədri Mirhüseyn Seyidov minnətdarlıq edərək demişdir: “Mənim 75 yaşım var. Bu müddət ərzində müxtəlif vəzifələrdə çalışmışam. Rayonun ictimai-siyasi fəaliyyətində yaxından iştirak etmişəm. Lakin Şərurda bugünkü qədər quruculuq işlərinin şahidi olmamışam”.

***

Sonra Ali Məclisin Sədri Şərur şəhər Mərkəzi Stadionunda olmuş, burada həyata keçiriləcək yenidənqurma işləri ilə bağlı müvafiq tapşırıqlar vermişdir.

*Ardı 3-cü səhifədə*

# Şərur Rayon Mədəniyyət Sarayı istifadəyə verilib

Mayın 10-da Şərur Rayon Mədəniyyət Sarayı istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Şərur Rayon Mədəniyyət Şöbəsinin müdiri Abbas Musayev çıxış edərək demişdir ki, bu gün muxtar respublikada mədəniyyətin hərtərəfli inkişafı təmin edilmişdir. Son illər mədəniyyət müəssisələri üçün yeni binaların istifadəyə verilməsi, mədəni irsimizin qorunması, yeni muzeylərin, uşaq musiqi və incəsənət məktəblərinin yaradılması, kənd mərkəzlərində kitabxana və mədəniyyət evləri üçün binaların istifadəyə verilməsi, eləcə də xalq yaradıcılığının inkişaf etdirilməsi, tarixi abidələrin bərpası və öyrənilməsi mədəniyyətimizin inkişafına mühüm töhfədir. Şərur Rayon Mədəniyyət Sarayının inşası da mədəniyyətə göstərilən qayğının bariz nümunəsidir. Bu möhtəşəm sarayın açılışı əlamətdar bir günə – ümummilli liderimizin doğum gününə təsadüf edir. Bu gün mədəniyyət işçiləri üçün ikiqat bayramdır. Çünki milli mədəniyyətimiz ulu öndər Heydər Əliyev ideyalarından güc alır.





Abbas Musayev göstərilən diqqət və qayğıya görə Şərur rayon mədəniyyət işçiləri adından minnətdarlıq etmiş, mədəniyyətimizin qorunması, yaşadılması və inkişaf etdirilməsi istiqamətində bundan sonra da səylə çalışacaqlarına söz vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şərur Rayon Mədəniyyət Sarayının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Şərur rayonunda 112 minə yaxın əhali yaşayır. Əhaliyə mədəni xidmətlərin göstərilməsi üçün Şərur Rayon Mədəniyyət Şöbəsi və onun tabeliyində 124 müxtəlif təyinatlı mədəniyyət müəssisəsi fəaliyyət göstərir. Bu gün ümummilli liderimizin doğum günündə Şərur Rayon Mədəniyyət Sarayı istifadəyə verilir. Bu o deməkdir ki, Azərbaycanda ulu öndər Heydər Əliyev siyasəti yaşayır, Heydər Əliyev yolu uğurla davam etdirilir. Ümummilli liderimizin yoluna sədaqət bu gün Azərbaycanı sabit və inkişaf etmiş ölkəyə çeviribdir. Bunun da bəhrələri göz qabağındadır. Heç bir zaman Şərur rayonunda bu qədər quruculuq və abadlıq işləri aparılmayıb, insanların yaşayış səviyyəsi bu qədər yüksəldilməyib.

Ali Məclisin Sədri demişdir: Əhaliyə kitabxana vasitəsilə, musiqi, incəsənət məktəbləri, xalq teatrı, folklor, yallı qrupları və bir çox başqa sahələrdə mədəni xidmətlər göstərilir. Sarayın istifadəyə verilməsi ilə bu sahədə yeni dövr başlayır. Bu da ondan ibarətdir ki, artıq kollektivlər sərbəst şəkildə müxtəlif mədəniyyət tədbirləri həyata keçirə biləcəklər. Mədəniyyət şöbəsi rayon İcra Hakimiyyəti ilə birlikdə rayonda müxtəlif tədbirlərin hazırlanıb keçirilməsini təmin etməli, muxtar respublikanın teatr və musiqi kollektivlərinin iştirakı ilə tamaşa və konsert proqramları təşkil olunmalıdır. Bunun üçün lazımi şərait və imkanlar vardır. "Şərur" Xalq Yallı Ansamblı üçün də lazımi şərait yaradılmışdır. Bu yallı qrupu təkcə müxtəlif konsertlər, tədbirlər zamanı çıxışlar etməməli, yaradılan şəraitdən istifadə edərək bu sənətin yaşadılmasına nail olmalıdırlar. Ümummilli liderimiz deyirdi ki, ***"Şərur yallısı Naxçıvanın tacıdır"***. Şərur yallısı muxtar respublikamızın qədimliyini özündə yaşadan sənət nümunəsidir. Yeni Mədəniyyət Sarayı, sadəcə, rayonun simasının dəyişilməsi üçün yox, həm də mədəni-kütləvi tədbirlərin əhatə dairəsinin genişləndirilməsi üçün tikilmişdir. Vaxtilə burada mədəniyyət evi olmuşdur. Lakin şəraiti tələblərə cavab vermədiyindən sökülərək yerində 275 yerlik müasir Mədəniyyət Sarayı tikilmişdir. Mədəniyyət Sarayının qapıları daim açıq olmalı, müxtəlif tədbirlər keçirilməlidir. Şərur Rayon Xalq Teatrı da fəaliyyətini gücləndirməlidir. 1981-ci ildə xalq teatrı statusu alan bu mədəniyyət ocağı daha çox çalışmalı, aparıcı teatr statusu almalıdır.

Ali Məclisin Sədri bu işlərin həyata keçirilməsində kollektivə uğurlar arzulamışdır.



Şərur Rayon Mədəniyyət Sarayının bədii rəhbəri və rejissoru Nəsimi Məmmədzadə minnətdarlıq edərək demişdir: "Ali Məclis Sədrinin mədəniyyət işçiləri ilə hər bir görüşü bizim üçün bayramdır. Muxtar respublikada mədəniyyət sahəsində çalışanlar da dövlət qayğısı ilə əhatə olunmuşdur. Bu diqqət və qayğı bizi daha da ruhlandırır, yeni-yeni yaradıcılıq uğurlarına səsləyir. Bu gün muxtar respublikamızın bütün bölgələrində abadlıq quruculuq işləri gedir. Muxtar respublikamız günü-gündən çiçəklənir. Şair Asim Yadigarın dediyi kimi:

Hər gün təzə libas geyir əyninə,
Ulu Heydərimin yurdu Naxçıvan.
Şəfəqlər süzülür gülüşlərindən,
Təpədən dırnağa nurdu Naxçıvan.

Bu gün qədim diyar nura boyanmışdır. İstər bu gözəl Mədəniyyət Sarayının, istərsə də sosial binaların açılışı inkişafın bariz nümunəsidir. Bu gözəl Mədəniyyət Sarayının açılışı əlamətdar bir günə – Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə təsadüf edir. Bu münasibətlə mədəniyyət işçiləri adından təbriklərimizi çatdırır, əmin edirik ki, bundan sonra da tarixi-mədəni irsimizin qorunmasında səylə çalışacağıq".

Sonra Ali Məclisin Sədri binada yaradılan şəraitlə tanış olmuşdur. Məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan binada rayon Mədəniyyət Şöbəsi, Şərur Rayon Mədəniyyət Sarayı və Rza Təhmasib adına Şərur Rayon Xalq Teatrı üçün müasir iş şəraiti yaradılmışdır. Binanın zirzəmisində anbarlar, bufet, arxiv, qazanxana və texniki otaqlar, birinci mərtəbəsində 275 yerlik tamaşa zalı və səhnə, səhnə idarəetmə, kassa, növbətçi, qrim, qarderob və digər iş otaqları, ikinci mərtəbəsində isə Mədəniyyət Şöbəsi üçün 5 və Mədəniyyət Sarayı üçün 10 otaq yerləşir.




Sarayda "Şərur" Xalq Yallı Ansamblı, "Arpaçay" İnstrumental Ansamblı, "İncilər" Uşaq Yallı Qrupu fəaliyyət göstərir. Rza Təhmasib adına Şərur Rayon Xalq Teatrı 1938-ci ildə dram dərnəyi kimi fəaliyyətə başlamış, ötən dövrdə 100-ə yaxın müxtəlif janrlarda tamaşalar hazırlamışdır. Şərur rayonunun mədəniyyət müəssisələrində, ümumilikdə, 61 dərnək fəaliyyət göstərir.

Sonra tamaşa zalında "Şərur" Xalq Yallı Ansamblının çıxışı olmuş, "Köçəri" və "Tənzərə" yallıları ifa edilmişdir.

Ali Məclisin Sədri ansamblın üzvləri ilə görüşərək demişdir: Şərur yallıları yaşadılmalı, inkişaf etdirilməli və nəsildən-nəslə ötürülməlidir. Hazırda yallıların reyestri aparılır. 90-dan artıq yallı qeydə alınmışdır. 50-dən çox yallı isə nota köçürülmüşdür. Ona görə də kollektiv də yallıların yaşadılması üçün çalışmalıdır. Ulu öndərimiz Heydər Əliyev Şərur yallısına böyük qiymət verib. Bu dəyəri qoruyub saxlamaq lazımdır. Əgər Gəmiqaya abidələrinin tarixi 5-7 min il götürülürsə, deməli, yallıların da tarixi 5 min ildən çoxdur.

Sonra xatirə şəkli çəkdirilmişdir.



# Əhalinin mənzil-məişət şəraiti yaxşılaşdırılır

Son illər muxtar respublikada yenidən qurulan və ya tikilərək istifadəyə verilən yeni yaşayış binaları vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, həm də məskunlaşmanın və yüksək rifahın göstəricisidir.

Mayın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şərur şəhərində tikiləcək yeni yaşayış binasının layihəsinə və əraziyə baxmışdır.

Məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarət olacaq yaşayış binası 40 mənzillidir. Mənzillərdən 10-u dörd, 20-si üç, 10-u ikiotaqlı olacaqdır. Dördotaqlı mənzillərin ümumi sahəsi 120, üçotaqlı mənzillərin ümumi sahəsi 95-102, ikiotaqlı mənzillərin ümumi sahəsi isə 75 kvadratmetrdir.

Ali Məclisin Sədri tikinti işlərinə başlanılması barədə tapşırıqlar vermişdir.

*Ardı 4-cü səhifədə*

## Şərur Sənaye Məhəlləsində tikinti işləri davam etdirilir





Muxtar respublikada sənayenin inkişafı diqqət mərkəzindədir. Həyata keçirilən tədbirlər və mövcud şərait bu sahə üzrə sahibkarlığın inkişafına, iri sənaye komplekslərinin və istehsal sahələrinin yaranmasına imkan verir. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixli müvafiq Fərmanına əsasən Şərur Sənaye Məhəlləsinin yaradılması iqtisadiyyatın və innovativ inkişafın sürətlənməsinə, rəqabətədavamlı məhsul istehsalına töhfə verəcəkdir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şərur Sənaye Məhəlləsində görülən işlərlə maraqlanmışdır.

Bildirilmişdir ki, sənaye məhəlləsinin ərazisində 24 istehsal sexi, 6 inzibati və 5 texniki otaqdan ibarət bina və 3 istehsal korpusu inşa olunmuşdur. Sənaye məhəlləsinin idarəedici təşkilatına aid otaqların və kiçikölçülü istehsal və xidmət bloklarının yerləşdiyi inzibati bina 895 kvadratmetr ərazini əhatə edir. İstehsal bloklarının ümumi sahəsi isə 1300 kvadratmetrdir. İlkin olaraq 2 şirniyyat, 1 balın qablaşdırılması və 1 trikotaj malları istehsalı sahələri üzrə mikro və kiçik sahibkarlıq subyektləri tərəfindən müraciət daxil olmuşdur. Gələcəkdə bu sahələrin reallaşdırılması və fəaliyyətə başlaması istiqamətində, eyni zamanda inzibati binanın istehsal bloklarında corab və digər istehsal sahələri kimi müvafiq sahibkarlıq fəaliyyətinin təmin edilməsi istiqamətində işlər aparılır.

12 blokdan ibarət birinci istehsal korpusunda ayaqqabı, Avropa qapıları, bərk və yumşaq mebel olmaqla, 2 mebel müəssisəsi fəaliyyət göstərir. Hər biri ayrı-ayrı sahibkara məxsus bu müəssisələrdə Türkiyə mənşəli avadanlıqlardan istifadə edilir. Korpusun digər 6 blokunda isə rayonun mövcud imkanlarına uyğun olaraq yerli resurslardan istifadə edilməsi müvafiq sahələr üzrə sahibkarların cəlb olunması üzrə araşdırmalar aparılır. Hazırda daxil olmuş müraciətə əsasən meyvə-tərəvəz məhsullarının emalı sahəsinin qurulması istiqamətində sahibkarla birgə iş aparılır. 2 hissədən ibarət ikinci korpusda məktəbli ləvazimatları, kağız kisə və karton tara müəssisələri fəaliyyət göstərəcəkdir.

Üçüncü korpusda isə bitki yağı istehsalı zavodunun qurulması istiqamətində işlər davam etdirilir. Hazırda müəssisədə montaj işləri aparılır. Ötən müddət ərzində bir sıra avadanlıqların yerləşdirilməsi başa çatdırılmışdır.

Ali Məclisin Sədri Sənaye məhəlləsində, əsasən, yerli xammala əsaslanan müəssisələrin qurulması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə tədbirlər keçirilib



Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlər muxtar respublikamız, bütövlükdə, inkişaf mərhələsinə qədəm qoymuş, bu dirçəliş və tərəqqi qədim diyarımızın bütün bölgələrini əhatə etmişdir. Ulu öndərin anadan olmasının 99-cu ildönümündə dahi şəxsiyyətin, xalqın xilaskar liderinin xatirəsi Naxçıvan Muxtar Respublikasının bütün rayonlarında qürur və iftixar hissi, dərin ehtiramla anılıb.

Görkəmli dövlət xadiminin inkişaf və quruculuq siyasətinin bəhrəsidir ki, Şərur rayonunda da genişmiqyaslı tikinti-quruculuq, abadlıq tədbirləri həyata keçirilmiş, onlarca məktəb, xəstəxana, mədəniyyət müəssisəsi tikilib istifadəyə verilib, yollar, körpülər salınmış, meliorasiya qurğuları istismara verilib. Görülən bütün işlər əhalinin yaşayışının rahat şəraitlə təmin olunmasına zəmin yaradıb, onları ümummilli lidermizin ideyaları ətrafında daha sıx birləşməyə sövq edib. Rayon sakinləri onlara bu xoşbəxt günləri bəxş edən dahi rəhbərimizin misilsiz xidmətlərini unutmur. Mayın 10-da rayon ictimaiyyətinin nümayəndələri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rayon mərkəzindəki əzəmətli abidəsi önünə gələrək ümummilli liderin əziz xatirəsini yad edib, abidə önünə tər qərənfillər düzüblər.

Dahi şəxsiyyətin siyasi iradəsi və təşəbbüsü ilə təşkil olunan Babək rayonu da müstəqillik illərində böyük inkişaf yolu keçib, bütün yaşayış məntəqələri abadlaşdırılıb, irimiqyaslı iqtisadi layihələr icra olunub, yeni iş yerləri açılıb, məskunlaşma artıb, aqrar sektor dinamik inkişaf yoluna qədəm qoyub.

Mayın 10-da Babək Rayon İcra Hakimiyyətinin, idarə, müəssisə və təşkilatların əməkdaşları dahi siyasətçinin İcra Hakimiyyətinin önündəki əzəmətli abidəsinin önünə gələrək ulu öndərin xatirəsini dərin ehtiramla yad edib, abidə önünə gül dəstələri qoyublar.

Ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən sosial-iqtisadi strategiya, quruculuq xəttinin bəhrələrini Ordubad rayonunun timsalında da aydın görmək olar. Belə ki, ulu öndərin "Azərbaycanın incisi" adlandırdığı bölgə müstəqillik illərində on illərə bərabər inkişaf yolu keçərək müasirliyə qovuşub. Qazanılan uğurlar isə muxtar respublikamızda ulu öndər Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsi sayəsində nail olunub. Mayın 10-da dahi rəhbərin rayon mərkəzindəki abidəsi önünə toplaşanlar dahi rəhbərin xatirəsini dərin ehtiramla yad edib, abidəsi önünə gül-çiçək dəstələri qoyublar.

Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü Culfa rayonunda da yüksək səviyyədə qeyd edilib. Rayon İcra Hakimiyyətinin əməkdaşları, idarə, müəssisə və təşkilatlarının rəhbərləri dahi şəxsiyyətin Culfa şəhərinin mərkəzində ucalan abidəsi önünə gələrək ulu öndərin xatirəsini ehtiramla yad edib, abidə önünə gül dəstələri düzüblər. Culfa rayonunda da əldə olunan inkişaf dahi rəhbər Heydər Əliyev ideyalarının bəhrəsidir. Rayonda bütün sahələrin inkişaf etdirilməsi diqqətdə saxlanılıb, yüksək nəticələr əldə edilib və edilməkdədir.

Mayın 10-da Kəngərli rayonunun da idarə, müəssisə və təşkilatlarının rəhbərləri ulu öndər Heydər Əliyevin Qıvraq qəsəbəsində ucaldılmış əzəmətli abidəsini ziyarət edib, abidə önünə qərənfillər düzüb, bu böyük insana olan hörmət və ehtiramlarını bir daha nümayiş etdiriblər. 18 il bundan əvvəl yaradılan Kəngərli rayonunda ötən illər ərzində mühüm infrastruktur layihələri həyata keçirilib, rayonun sosial-iqtisadi həyatında əsaslı dəyişikliklər baş verib. Günü-gündən gözəlləşən və müasirliyə qovuşan Kəngərli rayonu hazırda özünün yüksəliş və intibah dövrünü yaşayır.

Şahbuz rayonunun idarə, müəssisə və təşkilat nümayəndələri görkəmli dövlət xadimi Heydər Əliyevin rayon İcra Hakimiyyətinin binası qarşısında ucalan abidəsinin önünə təzə-tər qərənfillər düzərək, ulu öndərin əziz xatirəsini ehtiramla yad ediblər. Mənalı ömrü xalqa xidmət, Vətənə məhəbbət nümunəsi olan ümummilli liderin müdrik siyasətinin davamı olaraq həyata keçirilən tədbirlər nəticəsində simasını büsbütün dəyişən rayon təkcə muxtar respublikamızın deyil, ölkəmizin gözəl bölgələrindən birinə çevrilib.

Sədərək rayonunun idarə, müəssisə və təşkilatlarının nümayəndələri ümummilli liderin adını daşıyan Heydərabad qəsəbəsinin mərkəzində ucalan ulu öndərin büstünü ziyarət edib, önünə gül dəstələri düzərək dahi rəhbərin əziz xatirəsinə hörmət və ehtiramlarını bildiriblər. Ulu öndərin uzaqgörən siyasətinin nəticəsində Sədərək kəndi 1990-cı il avqust ayının 28-də muxtar respublikanın inzibati ərazi bölgüsünə rayon kimi daxil edilib. Bu gün hərtərəfli dövlət qayğısı ilə əhatə olunan Sədərək rayonu XX əsrin 90-cı illərinin əvvəllərində Ermənistan tərəfindən hücumlara məruz qalmış, Naxçıvanın qala qapısı sayılan bu bölgədə 1990-1993-cü illərdə ağır döyüşlər getmişdir. O zaman buradakı vəziyyətlə bilavasitə tanış olan ümummilli lider Heydər Əliyev bu təcavüzün və işğalın qarşısının alınmasında səy göstərmiş, öz siyasi nüfuzu, zəngin dövlətçilik və idarəetmə təcrübəsi sayəsində dünyanın diqqətini burada baş verən hadisələrə yönəltmişdir. Ulu öndərimizin tövsiyələrinə uyğun olaraq bu tarixi və strateji Azərbaycan rayonuna bu gün də xüsusi diqqət yetirilir. Sədərəklilər ümummilli liderin Sədərək rayonunun yaradılması, qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsində xidmətlərini dərin hörmət və ehtiramla xatırlayırlar.

*Mayın 10-da ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə əlaqədar olaraq ümumtəhsil məktəbləri ilə Heydər Əliyev Muzeyi arasında interaktiv dərs keçirilib.*

İnteraktiv dərsdə muzeyin direktoru Ramil Orucəliyev əvvəlcə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il fevralın 18-də imzaladığı Sərəncam əsasında yaradılan mədəniyyət müəssisəsi haqqında şagirdlərə ətraflı məlumat verib. Vurğulanıb ki, dahi rəhbərin vətənimizin suverenliyi uğrunda, ölkəmizin düşdüyü bəlalardan xilası, Azərbaycanın inkişafı naminə mübarizədə əvəzolunmaz xidmətləri Onu hələ sağlığında xalqımızın ümummilli liderinə çevirib.

İnteraktiv dərs muxtar respublikanın 200-dən çox ümumtəhsil məktəbinin şagirdləri tərəfindən izlənilib.

Qeyd edək ki, həmin gün ümumtəhsil məktəblərində ilk dərs saatı da ümummilli liderə həsr olunub.

* * *

*Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı və Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun birgə təşkilatçılığı, "Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyətinin sponsorluğu ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə "Naxçıvan marafonu – 2022" keçirilib.*

Yaşı 14-dən yuxarı şəxslərin iştirak etdiyi marafon saat $11^{00}$-da İlham Əliyev adına Olimpiya İdman Kompleksinin qarşısından start götürüb və Uzunoba gölü ətrafında başa çatıb. Yarışda iştirak üçün, ümumilikdə, iki mindən çox şəxs qeydiyyatdan keçib. Bununla yanaşı, marafonda dövlət qulluqçuları, hərbçilər, mədəniyyət və incəsənət adamları, idmançılar, paralimpiyaçılar, ictimaiyyət nümayəndələri yaxından iştirak ediblər. Həmçinin yarışa muxtar respublikada fəaliyyət göstərən 60-dan çox təşkilat və şirkətin təmsilçiləri də qoşulub.



Məlumat üçün bildirək ki, marafon Olimpiya İdman Kompleksi, Xətai məhəlləsi, daha sonra Şıxmahmud və Xəlilli kəndlərindən keçərək Nəbatat bağı boyunca, oradan da Uzunoba gölü ətrafınadək marşrut xəttini əhatə edib.

Yarışın fan zonası finiş nöqtəsində – marafon partisi təşkil olunub. Burada iştirakçılar, eləcə də uşaqlar üçün xüsusi proqramlar, hədiyyəli oyunlar və sərin içkilər təqdim edilib.

Sonra qadın və kişi kateqoriyaları üzrə qaliblərə pul mükafatları təqdim olunub. Həmçinin kişi və qadın kateqoriyasının hər biri üzrə dördüncü-onuncu yerləri tutan şəxslərə "Naxtel" MMC-nin və "Badamlı" şirkətinin qiymətli hədiyyələri verilib.

Qeyd edək ki, "Naxçıvan marafonu – 2022"yə yüzlərlə könüllü gənc dəstək göstərib.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 395